Özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsi - elan

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrası ilə əlaqədar məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri əsasında əhatəliliyin artırılması və məktəbəqədər təhsilə cəlb edilmiş uşaqların 1-5 yaşlılara nisbətinin 50 faizə çatdırılması nəzərdə tutulmuşdur. Strategiyanın hədəfinə nail olunması üçün digər tədbirlərlə yanaşı Elm və Təhsil Nazirliyi tərəfindən özəl məktəbəqədər təhsil müəssisələri üçün Qrant müsabiqəsi (bundan sonra: Qrant müsabiqəsi) elan edilir.

Qrant müsabiqəsinin əsas məqsədi 2025/2026-cı tədris ilində məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiqi ilə məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsidir.

Qrant müsabiqəsi çərçivəsində 2025/2026-cı tədris ili ərzində özəl məktəbəqədər təhsil müəssisələrində maksimum 5300 təhsilalanın maliyyələşdirilməsi mümkündür.

Müsabiqəyə təqdim olunacaq sənədlərin qəbulu 24.09.2025-ci il tarixindən başlayaraq 10.10.2025-ci il tarixi də daxil olmaqla Elm və Təhsil Nazirliyində həyata keçiriləcək.

Qrant müsabiqəsinin iştirakçılarına dair tələblər:

- “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən məktəbəqədər təhsil fəaliyyəti lisenziyasına malik olması;
- “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nin altsisteminə (MTİS) qoşulmuş və məlumatlarını sistemə daxil etmiş olması;
- Bir təhsilalan üçün aylıq təhsil haqqı məbləğinin 500 (beş yüz) manatı keçməməsi.

Qrant müsabiqəsində iştirak üçün tələb olunan sənədlər:

- “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq iştirakçının məktəbəqədər təhsil fəaliyyətinin həyata keçirilməsi lisenziyasının və onun əlavəsinin əslinin surəti;
- İştirakçının dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin (dövlət reyestrindən çıxarış) və nizamnaməsinin əslinin surəti;

- İştirakçının Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərinin, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq riskli vergi ödəyicisi olmamasına dair Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən verilmiş arayış;
- İştirakçının qanuni nümayəndəsinin şəxsiyyət vəsiqəsinin əslinin surəti;
- İştirakçının qanuni nümayəndəsi tərəfindən imzalanmış və möhürlənmiş layihə təklifi (Layihə təklifi qanuni təmsilçidən fərqli şəxs tərəfindən imzalandıqda onun şəxsiyyət vəsiqəsinin və imza səlahiyyətlərini təsdiq edən hüquqi sənədin əslinin surəti).

Qrant müsabiqəsinə təqdim edilən layihə təkliflərinə verilən ümumi tələblər:

Layihə təklifi bu elana əlavə edilən formaya uyğun hazırlanmalıdır:

- Layihə təklifindəki uşaqların sayı “Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi”nin altsistemində (MTİS) tədris Azərbaycan dilində aparılan qruplar üzrə ayrılmış ümumi saya bərabər olmalıdır;
- Layihə təklifi 2026-cı ilin avqust ayının sonunadək nəzərdə tutulan təhsil müddətini əhatə etməlidir;
- Layihə təklifində bir uşaq üçün nəzərdə tutulan aylıq qrant məbləği 250 (iki yüz əlli) manatı keçməməlidir;
- Təqdim olunmuş layihələrin məzmunu Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktları, habelə Elm və Təhsil Nazirliyinin Əsasnaməsi ilə ziddiyyət təşkil etməməlidir;
- Layihə təklifi məktəbəqədər təhsil fəaliyyətinin həyata keçirilməsi lisenziyası verilmiş hər bir məktəbəqədər təhsil müəssisəsi üzrə ayrıca təqdim edilməlidir (Qeyd: Əgər eyni hüquqi şəxs məktəbəqədər təhsil fəaliyyətinin həyata keçirilməsi üzrə bir neçə lisenziyaya malikdirsə, hər bir məktəbəqədər təhsil müəssisəsi üzrə ayrıca müsabiqəyə müraciət etməlidir).

Qrant müsabiqəsi aşağıdakı mərhələləri əhatə edir:

- İştirak üçün tələb olunan sənədlərin yoxlanılması mərhələsi;
- Layihə təkliflərinin qiymətləndirilməsi və qaliblərin müəyyənləşdirilməsi mərhələsi;
- Qrantların rəsmiləşdirilməsi mərhələsi.

İştirak üçün tələb olunan sənədlərin yoxlanılması mərhələsi:

— Bu mərhələdə qrant müsabiqəsinin iştirakçılarına verilən tələblər və iştirak üçün tələb edilən sənədlər yoxlanılır. Bütün tələblərə cavab verən iştirakçıların layihə təklifləri qiymətləndirilməyə buraxılır;

— Hər hansı sənədi təqdim etməyən iştirakçıya qısa müddət ərzində çatışmazlıqların aradan qaldırılması üçün müddət verilir. İştirakçı bu müddət ərzində iştirak sənədlərindəki çatışmazlıqları tam aradan qaldırarsa, Qrant müsabiqəsində iştirakı davam edir, əks halda iştirakı dayandırılır.

Layihə təkliflərinin qiymətləndirilməsi və qaliblərin müəyyənləşdirilməsi mərhələsi:

— Bu mərhələdə iştirakçıların Layihə təklifləri aşağıdakı qiymətləndirmə meyarları əsasında 100 (yüz) ballıq şkala üzərindən qiymətləndirilir və keçid balı 50 (əlli) bal təşkil edir:

№	Meyar	Qiymətləndirmə
1.	**Təhsilin təşkili keyfiyyəti** • Təhsil proqramları və resursları (müəssisədə tətbiq olunan təhsil proqramları, istifadə olunan tədris vəsaitləri, avadanlıqlar, oyun və oyuncaqların keyfiyyəti və məqsədəuyğunluğu və s.) • İnklüzivlik (xüsusi qayğıya ehtiyacı olan təhsilalanların tədris prosesinə inteqrasiyası üçün şərait və dəstək mexanizmləri və s.) • Uşaqların nailiyyətlərinin izlənilməsi mexanizmləri və s.	**0-20 bal**
2.	**Qayğının təşkili keyfiyyəti** • Psixososial dəstək (uşaqların emosional rifahına, ünsiyyət bacarıqlarına, sosiallaşmasına dəstək göstərilməsi, xüsusi qayğıya ehtiyacı olan təhsilalanlara fərdi yanaşmanın təmin olunması və s.) • Təhsilalanların gündəlik rejiminin təşkili (yuxu, qidalanma, oyun və təlim fəaliyyətlərinin balanslaşdırılmış şəkildə qurulması və s.) • Uşaqlar üçün qidalanma (qida rasionunun müvafiq qida standartlarına uyğunluğu, yaş qruplarına görə balanslı tərkibin təmin edilməsi, menyu cədvəlləri, yeməklərin keyfiyyətinə nəzarət sistemi və s.) • Sağlamlıq və gigiyena nəzarəti (təhsilalanların şəxsi gigiyenasına dəstək, gündəlik tibbi müşahidə, ilkin tibbi yardım və s.) və s.	**0-20 bal**
3.	**Kadrların idarə olunmasının səmərəliliyi** • Müəssisənin mövcud rəhbər və pedaqoji işçilərinin təhsil səviyyəsi, peşə kompetensiyaları və iş təcrübəsi • Müəssisənnin rəhbər və pedaqoji işçilərinin işə qəbulu, onların idarə olunması, peşəkar inkişafı və stimullaşdırıcı məvacib sistemi və s.	**0-20 bal**
4.	**Təhsilalanların təhlükəsizliyinin güvənliliyi** • Sanitariya-gigiyena normaları (təmizlik, havalandırma, içməli su və s.) • Fiziki təhlükəsizliyi (oyun meydançalarının təhlükəsizliyi, iti küncləri qorunması, qapı-pəncərə sistemləri və s.) • Mühafizə və giriş-çıxışa nəzarət (kameralar, giriş-çıxış qeydiyyatı, təhsilalanların qəbulu və təhvili və s.) və s.	**0-20 bal**
5.	**Əməkdaşlıq və hesabatlılığın uyğunluğu** • Valideynlərin aylıq təhsil haqqı ödənişlərinin qeydiyyatı və hesabatlılığı • Valideynlərlə əməkdaşlıq (valideynlərlə müntəzəm məlumat mübadiləsi və qarşılıqlı əməkdaşlığın qurulması)	**0-20 bal**

№	Meyar	Qiymətləndirmə
	• Donorlarla əməkdaşlıq (qrant müqaviləsinin şərtlərinə nəzarət sistemi, hesabatlılıq sistemi və s.) • Davamiyyətin monitorinq mexanizmləri, sənədləşdirmə metodikası və s.	
	CƏMİ BAL:	**0-100 bal**

— Layihə təkliflərinin qiymətləndirilməsi zamanı layihənin ümumi mahiyyətinin dəyişdirilməməsi şərti ilə iştirakçıdan təklif olunan layihəyə dair əlavə yazılı izahat alına bilər;

— Əgər bir neçə layihə eyni bal toplayıbsa və bu bal qrant müsabiqəsinin büdcəsinə sığan ən aşağı baldırsa, üstünlük ən çox növbənin mövcud olduğu dövlət bağçalarının yerləşdiyi coğrafi ərazidə olan özəl məktəbəqədər təhsil müəssisələrinə verilir;

— Keçid balını toplayan və qrant müsabiqəsinin büdcəsinə sığan ən yüksək bala malik iştirakçılar qalib hesab olunur, onlar “Qrantların rəsmiləşdirilməsi” mərhələsinə keçir, digər iştirakçıların Qrant müsabiqəsində iştirakı dayandırılır.

Qrantların rəsmiləşdirilməsi mərhələsi:

— Bu mərhələdə Müsabiqə qalibləri ilə qrant müqaviləsi bağlanılır. Qrant müqaviləsinin məbləği müsabiqə qalibinin layihə təklifində nəzərdə tutulan müddət ərzində təhsilalanların hər birinə ayda 250 (iki yüz əlli) manat ayrılmaqla hesablanır;

— Əgər hər hansı Müsabiqə qalibi ilə qrant müqaviləsinin bağlanılması mümkün olmazsa, yüksək bal toplamış növbəti iştirakçı qalib hesab oluna və onunla yuxarıdakı şərtlərlə qrant müqaviləsi bağlanıla bilər;

— Bağlanılmış bütün qrant müqavilələri “Qrant haqqında Azərbaycan Respublikasının Qanunu”nun və “Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”nın tələblərinə uyğun olaraq qeydə alınması üçün müvafiq icra hakimiyyəti orqanına təqdim olunur;

— Qeydə alınmayan müqavilələr üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz.

E-mail: preschool.grants@edu.gov.az

Telefon: 012-599-11-55 (5231) və 051-201-29-71

Ünvan: Bakı şəhəri, Xətai prospekti 49